MƏDƏNİYYƏT

# Musiqi alətlərimizi nə dərəcədə qoruyub saxlaya bilirik?

## RAMİZ QULİYEV: "BU SAHƏDƏ CİDDİ İŞLƏMƏK VƏ MARAQ YARATMAQ LAZIMDIR"



**HƏR** bir xalqın özünəməxsus musiqi mədəniyyəti var və bu, nəsildən-nəslə keçərək öz tarixiliyini və mədəniyyətini qoruyur. Bu gün musiqi alətlərimizə maraq nə dərəcədədir? Xalq çalğı alətlərimizi qoruyub saxlaya bilirikmi?

***Mövzu ilə bağlı "Üç nöqtə"yə danışan tarzən Ramiz Quliyev bildirdi ki, həmişə xalqımız çalğı alətlərimizi sevib və qoruyub:*** "Əgər xalq mədəniyyətini qorumasa, heç bir alət yaşaya və gələcək nəsillərə çata bilməz. Xalq çalğı alətlərimiz bu günə gəlibsə, bu xalqımızın sayəsində olub. Bizim yüksək musiqi sərvətimiz - muğam sənətimiz var. Muğam sənətini yaşatmaq üçün milli alətlərimiz var. Xalq musiqi alətləri zaman-zaman, xüsusən də XX əsrin ortalarından başlayaraq yüksək səviyyədə inkişaf edir. Hazırda bizim xalq alətlərimizdən tar öz zirvəsindədir. Xalq alətlərinin dünya səviyyəsində tanınması və YUNESCO-da qorunması bəşəriyyətin qeyri-maddi irsinin qorunmasının təsdiqi deməkdir".

***Tarzənin sözlərinə görə, hazırda ifaçılar daha yaxşı mənbələrdən bəhrələnirlər:*** "Əvvəllər ədəbiyyat və repertuar çox az idi. 10-a qədər kitab nəşr etdirmişəm. Bizim gördüyümüz ənənəni davam etdirənlər var. Musiqi məktəblərində məqsədyönlülük hiss olunur. Uşaqların pulsuz oxuma imkanları var. Bu, dünyanın başqa ölkəsində yoxdur. Heydər Əliyev Fondu bu sahədə misli-bərabəri olmayan işlər görüb. Avropa ölkələrində Azərbaycan musiqi gecələri keçirilir. Beynəlxalq muğam festivalı və muğama həsr edilmiş elmi simpozium keçirilir". ***Ramiz Quliyev bildirdi ki, musiqi alətləri arsasında tar daha çox yayılıb:*** "Tar fiziki güc, texniki imkan tələb edir. Buna baxmayaraq, tara maraq çoxdur. Xalqımızın adına layiq iş göstərməyə çalışırıq. İnsanlar tarı sevirlər. Amma tarı ifa etmək və zirvədə saxlamaq çətindir. Tar öyrənməyə gələnlər çoxdur".

***R.Quliyev uşaq və gənclər arasında keçirilən beynəlxalq müsabiqədən də danışdı:*** "Müsabiqənin münsiflər heyətinin sədri kimi 600-ə qədər gənc musiqiçiləri dinlədim. Onları qiymətləndirdik və 160 nəfər iştirakçını seçdik. İştirakçıların çoxu tar ifaçıları, 50%-isə kamança, tar, qarmon, kanon, balaban alətləri ifa edənlər idi. Bu alətləri çalanlar az idi. Bu sahədə ciddi işləmək və maraq yaratmaq lazımdır. Alətlərin dünya səviyyəsinə çıxmağına da imkanlar var. Tarda simfonik orkestrdə ifa edirik. O konsertlər yüksək səviyyədə qəbul olunur. Tarın italyan, fransız, alman, amerikan və başqa dillərdə danışması üçün o sənətin elmini bilmək lazımdır. Ona görə də tar alətimizə böyük diqqət var".